

Vladimir Semyonoviç Korotkeviç

Keçmiş sevgiliylə ayrılan zaman
Ona gedən yolu unudur insan,
Lakin öz yuvanı sevə bilməzsən
Siyah sarğı ilə qulaqlarında,
Siyah sarğı ilə dodaqlarında,
Siyah sarğı ilə göz qapağında.

Yalan kəlmələrlə toxunma, aman!
Siyah əməllərlə doğma torpağa.
Bu həyatı yalnız ona borclusan
Taleyin bağlıdır ona doğuşdan.
Bənzəri tapılmaz onun dünyada.

* * *

Var idim. Varam mən. Var olacağam.
İçimdə bitməyən sonsuz təlaş var.
Çünki milyonlarla insan yerinə
Ürəyim yarılır, mən nigaranam.

Tarlalar şumlayan, dəmirlər döyən,
Göyləri, dənizi yarıb, ram edən,
Ölümlə çarpışıb, azadlıq seçən,
Heç kimə heç zaman boyun əyməyən,
İnsanlıq uğrunda daim döyüşən,
Dipdiri yanaraq, küllərə dönən,
Qorxmadan vətəni xilas eyləyən,
Göyə dava açıb, ölümə gedən,
Meşədən, səngərdən üsyan eyləyən
İnsanın yerinə narahatam mən.

Ölümlə təkbətək vuruşa gedən,
Gələn nəsillərçün parlasın deyə
Üfüqdə uca bir məbəd tikdirən,
Qanından son damla olsa da verən,
Ömrünü vətənə fəda eləyən,
Səmaya mələktək uçub yüksələn
İnsanın yerinə narahatam mən.

Qoy eşqin, şəfəqin sərhədlərində
Ulu yurdumuzun zirvələrində
Yanıb işıq saçsın, daim ucalsın
Tanrının nəzəri Belarusdadır
İnanın, xalq sözü hikmətlə dolu
Bu həqiqət ilə şeh parıldayır
Sonsuz yallı gedir ulduzlar göydə
Bu həqiqət ilə doludur yer də.
Doğma əcdadımın nəsihətində,
Xalqımın fikirlər xəzinəsində
Sonsuz həqiqət var ağac səsində
Palıd yarpağının zümzüməsində
Həqiqət səmada, göyqurşağında,
Rənglərin yerlərə qovuşmasında.
Qoy bu həqiqəti dananlar olsun!
Desinlər: şairdir, qafiə qoşur!
Ancaq belə sadiq dostlar harda var?
Belə gözəl qızlar harda tapılar?
Burda qəlblər geniş, qapılar açıq,
Bu vətən evindir, dua yerindir,
İyirmi min çayın
On bir min gölün
Sənin məmləkətin!
Onunla öyün!
Bizim süfrə açıq dosta, sirdaşa
Yanğınlar söndürən
Gücümüz vardır
Tanrının məskəni Belarusdadır.
Qoy burda yaşasın,
Bizimlə qalsın!
Əgər bir gün biz də qəzəbə gəlsək,
Göylərdən ildırım birdən parlasın
Uca ağacların üstünə çatsın,
Xırda ağaclara qoy toxunmasın
Bülbüllər oxuyur səhərəyaxın
Tanrının məskəni Belarusdadır
Qoy burda yaşasın, bizimlə qalsın!

* * *

İmarətlər mənim nəyimə gərək?
Burdadır yeganə məskənim mənim.
Burda hər bir qarış torpağın altda
Uyuyur əcdadım, əsgərim mənim.

Qılıncla nizələr yadigar qalıb
Bir də nəsihətlər susmuş dodaqda
Burda yaşayırıq, yolumuz təkdir -
Sadiq qalmalıyıq biz buralara!

* * *

Döyüşdə şeirdən güclü heç nə yox
Yaddaşı yaşadan şeirdir əlbət.
Şairlər həyatda daim qalacaq
Mahnıları əgər səslənəcəksə.
Göylərə simurqu uçurduramsa,
Ən gözəl nağılı bitirmədən mən,
Deməli, hələ mən yaşayacağam
Yenə də, bir daha, sonsuza qədər!
Dənizlər, ulduzlar əbədiyyəti
Mənimlə yaşayıb yaşadacaqlar.
Onların işığı saçmasa belə,
Məni yaşadacaq Belarus hələ!
Bilməm soyuq axşammıdır qışdan yadigar,
Yoxsa payızmıdır yağışlarıyla?
Səninlə küçədə görüşdüyüm an
Dizlərim titrəyir, qorxuram yaman.
Yəqin hələ sirri açmayacağam
Gör bir bu ürəyim necə döyünür!
Bülbüllər oxuyur nəğmələrini
Siqaret çəkirəm axşamsa çökür.
Susuram, dinmirəm gün yenə keçir
Bülbüllər səadət nəğməsin deyir,
Əbədi iztirab çəkirlər yenə.
Nə olar əlini mənə uzatsan?
Dizlərim titrəyir, qorxuram yaman.
Sübh çağı sevgimdən necə danışım?
Bülbüllər şeh içrə nəğmə deyərkən
Sənin cavabını necə eşidim?
Dizlərim titrəyir, qorxuram yaman.
Deyəsən hələ mən çox susacağam.

**Tərcümə: Aydan Xəndan**

Kaspi 2020.- 13-16 iyun.- S.8.